# “Qurtuluş” tamaşası Aviasiya Akademiyası səhnəsində





**Martın 16-da Milli Aviasiya Akademiyasında Cəfər Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrının aktyorları tərəfindən ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr edilmiş “Qurtuluş” tamaşası göstərilib.**

Tamaşa Milli Aviasiya Akademiyasının (MAA) rektoru, akademik Arif Paşayevin təşəbbüsü, Mədəniyyət Nazirliyinin və Azərbaycan Aviasiya İşçiləri Həmkarlar İttifaqının təşkilatçılığı ilə MAA-da Cəfər Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrının aktyorları tərəfindən səhnələşdirilib.

Tamaşa MAA-nın rektorunun köməkçisi, prorektorları, professor-müəllim heyəti və tələbələri tərəfindən böyük maraqla izlənilib.

Sonda Cəfər Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrının bədii rəhbəri İftixar Piriyev MAA-nın rektoru, akademik Arif Paşayev başda olmaqla kollektivə təşəkkürünü bildirib.

***“Xalq qəzeti”***

Xalq qəzeti .- 2023.-17 mart.- S.13.